BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2008*

# MİLLƏTÇİLİKDƏN VƏTƏNPƏRVƏRLİYƏ DOĞRU

Q.D.QULİYEVA

*Bakı Dövlət Universiteti*

1905–1907-ci illər ərzində sosial münaqişələrin kəskinləşməsi, sosial təbəqənin artan narazılığı Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin siyasi və ideoloji cəhətdən fəallaşması üçün obyektiv şərait yaratdı.

Çar hökumətinin böyük dövlətçilik siyasəti, milli zülmün güclənməsi, imperiyanın milli ucqarlarında yaşayan xalqların hüquqlarının hər cür sıxışdırılması cəmiyyətin milli məsələsinin tezliklə həllində marağı olan bütün təbəqələrini bu məsələ ətrafında birləşdirirdi. Bu da ondan irəli gəlirdi ki, milli məsələ ən mürəkkəb sosial məsələlərdən biri idi.

Ümumiyyətlə, bu dövrdə Azərbaycan xalqı öz milli müqəddəratını həll etmək üçün gərgin mübarizəyə qalxmışdır.

Təbii ki, bu mübarizədə xalqın söz sənətkarları öndə gedirdilər. Çünki onlar xalqın milli şüurunu oyatmaqla onu mübarizəyə səfərbər edirdi. «Olum, ya ölüm» sualı Azərbaycan siyasi – ictimai fikrinin başlıca devizinə çevrilmişdi. Azərbaycan–türk milləti bir tərəfdən rus çarizminin yeritdiyi şovinist millətçilik siyasəti nəticəsində öz tarixi mənliyindən uzaqlaşdırılır, digər tərəfdən din pərdəsi altında fəaliyyət göstərən irticaçı qüvvələr xalqı fanatizm girdabında saxlayıb, onun dünyəvi sivilizasiyaya qovuşmasına mane olurdu.

Belə bir zamanda, «Molla Nəsrəddin» meydana gəldi və bütün mollanəsrəddinçilər ağır mənəvi bəlalarla üz–üzə dayandılar. Dünya mədəniyyətinin, sivilizasiyanın doğulduğu Şərq və onun bir hissəsi olan Azərbaycanın indi Qərb dünyasından geri qalması təəssüfü bütün mollanəsrəddinçiləri narahat edirdi.

Belə bir zamanda böyük bir cəsarətlə işə başladılar. İlk növbədə onu da qeyd edək ki, mollanəsrəddinçilərə bu cəsarəti zəmanə, 1905–1907-ci illər hadisələri vermişdir. Dövrün belə demokratik fikirli yazarlarından biri də Haşım bəy Vəzirov idi. Görkəmli yazıçı–jurnalist Haşım bəy Vəzirov dünyagörüşü etibarı ilə idealist idi. O, mənsub olduğu İslam dinini dinlərin şərəflisi hesab edirdi. Çünki H.Vəzirov İslam dininin tarixini, dinin ehkamlarını yaxşı bilirdi. Hələ uşaq ikən mollaxanada öyrəndiklərini, Şuşada realnı məktəbdə və İrəvan Müəllimlər Seminariiyasında daha dərindən mənimsəyə bilmişdir. O, həmçinin yaxşı bilirdi ki, nail olduğu İslam dininin ən böyük düşməni cəhalət, xurafat, istibdad, zülm və haqsızlıqdır. Haşım bəy özünün publisist fəaliyyətini cəhalətlə, xurafatla, istibdadla, zülm və haqsızlıqla mübarizəyə həsr etmişdir.

Haşım bəyi yalnız vətəninin müsəlman əhalisi deyil, bütün İslam

dünyası düşündürürdü. O, «Polşa və Litva müsəlmanları», «Alman mətbuatı və İran işləri», «İslamiyyətə hücum», «Panislamizm və ermənilər», «Kazanda mübəlliqlər (missionerlər)», «Müsəlmanların gələcəyi» və onlarla başqa məqalə və «Keyfim gələndə»lərini məhz Rusiyada və İslam ölkələrində baş verən müxtəlif hadisələrə həsr etmişdir.

«Polşa və Litva müsəlmanları» məqaləsini Haşım bəy çarizmin müstəmləkəsi olan iki ölkənin altı quberniya ortasına kəklik çolpası səpələnmiş müsəlmanların acınacaqlı vəziyyətlərinə həsr etmişdi. Bu ölkələrdəki müsəlmanlar tamamilə insani hüquqlardan məhrum edilmiş halda yaşayırdılar: «Onların bir dənə də olsa məktəbləri yoxdur. Binəvalar... bir müəllim tapıb evlərində uşaqlarına din və təriqət öyrətmək sevdasına düşəndə haman saat dövlət bürokratları biçarə müəllimin boynunun ardını kəsib, ondan müəllimlik şəhadətnaməsi tələb edir və olmadığı halda cürbəcür məcazata da həvalə edilir. Ev müəllimi şəhadətnaməsi isə müsəlmanlara verilməyir» (1).

Haşım bəy dövlət dumalarında müsəlman vəkillərini də günahkar sayır ki, onlar dindaşlarının dözülməz şəraitləri barədə: «mübahisə açıb bir məsələ qovzamayıb»lar. Bura müsəlmanları üçün hökumət elə vahiməli şərait yaratmışdır ki, onlar, hətta «öz dərdlərini izhar etməkdən də qorxurlar».

Daha sonra H.Vəzirov əlavə edir: «Yüz illərdən bəri istibdad qılıncını bu binəvaların başının üstündə oynadan hökumət bunları bir vahiməyə salıb ki, bunlar öz dərdlərini nəinki dövlət dumasında olan müsəlman vəkillərinə, bəlkə öz kəndlərində olan evlərində də bir kəsə izhar etməkdən qorxurlar» (2).

H.Vəzirov «Panislamizm məsələsi və ermənilər» başlıqlı silsilə məqalələrində panislamizmin mahiyyəti, işğalçı dövlətlərin panislamizm ilə mübarizədə məqsədləri, millətçi ermənilərin öz riyakar hərəkətlərini həyata keçirmək üçün ondan istifadə etmələri, həmçinin müsəlman aləmindəki daxili ziddiyyət, çəkişmələr və məzhəb münaqişələri və s. cəhətlər ətraflı şəkildə şərh olunmuşdur.

Məlumdur ki, xristian dünyasının müsəlman aləminə qarşı apardığı və dörd yüz il davam edən səlib müharibələrinə Səlcuq orduları son qoyduqdan sonra məğlub edilmiş Avropa dövlətləri öz siyasətlərini dəyişib, məkrli yollarla müsəlman ölkələrinin daxilində təxribatlar yaratmaqla, firqələr arasında ziddiyyətləri qızışdırmaqla, xristian dininin təbliğinə yol açırlar, İslam dini haqqında isə ağlasığmaz iftiralar yaradıb yayaraq bu məsələləri dövlət səviyyəsində, planlı şəkildə təşkilatlar vasitəsilə müntəzəm həyata keçirməyə başlamışdılar.

XIX əsrin sonu XX yüzilliyin əvvəllərində işğalçı Avropa dövlətlərinin, o cümlədən, Rusiyanın müsəlman dünyasına qarşı rəvac verdiyi məsələlərdən başlıcası panislamizm məsələsi idi. Panislamizm problemi müstəmləkəçilik siyasəti ilə bağlı olduğundan ən gözəl müsəlman ölkələrinin müstəmləkələrinə çevrilmiş dövlətlər – İngiltərə, Fransa, Rusiya və s. özlərinin çirkin işğalçılıq siyasətlərinə bəraət qazandırmaq üçün İslam dininə, İslam ölkələrinə qarşı vahid mübarizə cəbhəsi yaradıb, panislamizmlə mübarizə bayrağı altında öz qəddar siyasətini həyata keçirməyə çalışırdılar.

Artıq XX yüzilliyin ilk onilliklərində panislamizm problemi günün zəruri məsələlərindən birinə çevrilmişdi.

H.Vəzirov yazır: «Neçə yüz illərdən bəri Yevropa siyasi oyunlarını

məşğul edib, gecə–gündüz fikirlərə, qorxuya salan böyük məsələlərdən birisi də həmən bu panislamizm deyilən məsələdir ki, çox alimlər, çox siyasilər, çox yazıçılar bu məsələnin dəfinə, Yevropanın gözündə bir ağ ləkə hesabında olan azarın rəf və dəf olmasına gecə-gündüz ömür sərf edib, cildlərlə kitablar yazıb, yüzlərlə iclaslar qayırıblar».

Uzaqgörən publisist H.Vəzirov bir daha fikirlərini belə şərh edərək yazırdı: «Qabaq illərdə olan erməni–müsəlman vuruşmalarında ittihadi – islamın heç bir münasibəti olmadığı halda erməni qəzetləri və yazıçıları bu işə panislamizm libası geyindirməyə nə qədər can atdıqlarından dübarə yazmağa ehtiyac yoxdur» (4).

Panislamizm məsələsinə ermənilərin münasibətindən, çirkin məqsədlərinin həyata keçirilməsində istifadəsindən yerli-yersiz panislamizm sözündən və s. xüsusiyyətlərindən ətraflı söz açan H.Vəzirov qeyd edirdi ki, «erməni qəzetçi və yazıçıları nədən yazırlarsa-yazsınlar yazılarının axırını panislamizm ilə sona yetirir»lər. O, dəlil olaraq belə bir faktı da oxucularına xatırladır ki, «Mixayıl bəy adlı bir erməni görür ki, müsəlmanlarda də qəzet və jurnal əmələ gəlir. Rusiya müsəlmanları da oxumağa «yavaş-yavaş rəğbət göstərirlər», çünki bayazidoflar və qeyriləri kitablar yazıb İslama vurulan ittihamatı dəf edirlər, bunlar Mixayil bəyə xoş gəlmir, daha doğrusu, gözü götürməyir. Ona görə də «Rusiya» qəzetində «bu barədə uzun bir hekayə çap etdirib, hekayəsini də panislamizm ilə» bitirmişdir. Panislamizm məsələsi erməni qəzetçilərinin və yazıçılarının əsərlərində daimi yer tutur və müntəzəm surətdə panislamizm deyib «çığır-bağır» salmaq onların adətinə çevrilmişdi. Hətta «bu axır vaxtlarda panislamizm barəsində Yevropa və Rusiyadan bir o qədər səs çıxmırdı ki, bir tək erməni qəzetləri və yazıçılarının bu barədə çığır-bağırı dəxi siyasət cəhətindən çığır-bağır ilə Yevropa, Amerika siyasi oyunlarının yazısına, onların tədbir və təhrikinə bənzəyir. Bunların yazıları, məxsusi bir ədavəti, məxsusi bir bəzz və inadı büruz etmək üçün verilən donosları, şeytaniyyətlərə çox bənzəyir» (5).

Çarizmin 17 oktyabr manifesti ilə verdiyi müvəqqəti azadlıqları həqiqi rus partiyası etirazla qarşılamış, ona qarşı kəskin mövqe tutmuşdur. Onların bu mövqeyi Haşım bəyin «Rusiyada hürriyyəti-vicdan mümkündürmü?» adlı məqaləsində öz ifşasını tapmışdır. O, bu münasibətlə yazmışdır: «Hürriyyət əmri-hümayun ilə verildi. Az bir müddət Rusiya dövran da sürdü, nəticə də hamıya göründü. Lakin Rusiya «həqiqi rus firqəsi kimi, bir cəhalət firqəsinin varlığı ilə onun hamiləri: Pruşkeviclərin, Timuşkinlərin, Menşikovların və b. əshabın vücudu ilə böylə müstəhsan və gözəl bir məslək Rusiyada davam edə biləcəkmi? Xeyr, əlbəttə, xeyr. Nə qədər ki, böylə nəs şəxslərin vücudi-namu-barəkləri nəinki Rusiyada, bəlkə yer üzünün hər nöqtəsində olsa-olsun, mövcuddur, insanlar üçün bir xoşbəxtlik, bir səadət əlaməti gözləməklik özü də batil bir fikirdədir».

Rus çarlığı müsəlman ölkələrini işğal etdikdən sonra həyata keçirdiyi müstəmləkəçilik tədbirlərindən biri də yerli əhaliyə məxsus yararlı əkin yerələrini onlardan alıb, gəlmə ruslara paylamaqla rusları həmin yerlərdə məskunlaşdırmaqdan ibarət olmuşdur.

H.Vəzirov çarizmin müstəmləkəçilik siyasətini müxtəlif vasitələrlə – elan, məktub, qəzet xəbərləri, telefon zəngləri, teleqram, məqalə və «Keyfim gələndə»lərində tənqid və ifşa edirdi. O, «Keyfim gələndə»lərinin birini də məhz bu məsələyə həsr etmişdi: «Telefonda, lap uzaqdan»

Sibirdən «bir nazik ağlamaq, sızlamaq səsi» eşidilir. Ağlayıb-sızlayan qırğızlardır. Qırğızlar ona görə ağlaşırlar ki, «onların yüz min, yüz əlli min desyatin yerlərini zor ilə alıb, ruslara verməк istəyirlər». Çarəsiz qalan qırğızlar dumadakı vəkillərinə teleqram vurub «təvəqqe edirlər ki, bunların harayına çatsın». Qırğızların hərəkətinə istehza ilə yanaşan Haşım bəy yazır: «Adə? A qırğızlar! Sizin vəkiliniz nədir ki, harayınıza çata bilsin. Hələ bir görün o öz harayına çata biləcəkmi ki, sizin də harayınıza çata» (7).

Göründüyü kimi, felyetonda həm çarizmin qəddar müstəmləkəçilik siyasəti, həm də üçüncü dövlət dumasında müsəlman vəkillərinə düşmən münasibət qəzet vasitəsilə oxucularına çatdırılır. Öz vəkillərinin haraylarına çatacağına ümid bəsləyən sadəlövh qırğızları isə Haşım bəy ürək ağrısı ilə «səfeh» adlandırır.

«Tazə həyat»ın qarşısına qoyduğu vacib məsələlərdən biri və başlıcası müsəlmanları düşdükləri «fəlakətə yaxın hazırkı faciəli vəziyyətdən çıxarmağa «xidmət etməkdən» ibarət idi». H.Vəzirov bu münasibətlə yazırdı: «Bizim müsəlmanlar bu halda hamı millətlərdən, hamı insanlardan artıq məzlum, artıq məqhurdur» (8).

Haşım bəyin «millətçiliyi» rus və avropalıların şovinizmindən tamamilə fərqli olub, indiki mənada vətənpərvərlik idi. Çünki onun millətçiliyinin əsasını vətənpərvərlik təşkil edirdi. Hamımız bu vətənpərvərlikdən nümunə götürməliyik!

## QEYDLƏR


1. Axundov Nazim. Azərbaycan satira jurnalları (1908-1920). Bakı: Az.EA-nın nəşr. 1968.
2. Hüseynov Firudin. Molla Nsrəddinçilər. Bakı: 1986.
3. Zeynalov Ağarəfi. Haşim bəy Vəzirovun jurnalistik fəaliyyəti (Keyfim gələndə). Bakı: Şuşa nəşr., 2001.
4. «Səda», 20 iyun, 1910, №138.
5. «Tazə həyat» qəzeti. 31 dekabr, 1907, №209.
6. «Tazə həyat» qəzeti. 2 aprel, 1907, №2.
7. Mahmudova V. İslam tarixi Azərbaycan dramaturgiyasında. Bakı: 2006.


## ОТ НАЦИОНАЛИЗМА К ПАТРИОТИЗМУ


Г.Д.ГУЛИЕВА



### РЕЗЮМЕ

В течение 1905-1907 годов обострение социальных конфликтов, нарастающее недовольство социальных слоёв создавали объективные условия для усиления политической и идеологической активности всех слоёв азербайджанского общества.

Азербайджанский народ поднялся на напряженную борьбу за своё национальное самоопределение.

Безусловно, на переднем плане этой борьбы находились мастера слова азербайджанского народа. Один из них был известный молланасреддиновец Гашим бек Везиров. Г.Везиров свою публицистическую деятельность посвятил борьбе с суеверием, предрассудками и беззаконием.

## FROM NATIONALIZM TO PATRIOTIZM

G.D.GULIYEVA

**SUMMARY**

İn the years of 1905-1907 the straining of social conflicts? The increasing discontent of social stratum caused an objective situation for growing more active activation in all he spheres of azerbaijan society from the political and ideological point of view as well.

The Azerbaijan people began to struggle for the solution of the fortune of nations. İt is natural that the masters of words of people always were in front lines/ and one of them was a well-кnown follower of «mullahnasreddin» hashimbey vazirov. H.Vazirov devoted his publisistic activity to ignorance, prejudice and injustice as well.